

## CAVANŞİR QƏMBƏR (ABDULLAYEV)

### *OYNADIM*

Çox dedilər, itlə-qurdla oynama,
Mən sadəcə taleyimlə oynadım.
Baş əymədim zalımlara, nadana,
Əcəlimlə, çörəyimlə oynadım.

Sanmadım ki, dərim-tüküm didilər,
Çox danışdım, öz payımı yedilər.
Vətən dedim, - uşaqsanmı? - dedilər...
Beşiyimlə, bələyimlə oynadım.

Mağıl oldum, fitnə-fəsad qurdular,
Qarabağda ürəyimdən vurdular.
Otuz ildi, ümidimi qırdılar,
Həkimlərdə ürəyimlə oynadım.

Yazdım-pozdum, haray saldım min kərə,
Haqq-həqiqət çatmadı ki, keylərə!
Sərvətimi sovurdular göylərə,
Xəlbirimlə, ələyimlə oynadım.

Toy tutuldu sarı simə dəyildi,
Çox poladlar muma döndü əyildi.
"Yanıq Kərəm" mənim havam deyildi,
Öz havamla, küləyimlə oynadım.

Cavanşirəm, dərd başımdan getmədi,
Atılan daş mərd olandan ötmədi.
Ünüm yetdi, əlim Haqqa yetmədi,
Şeytanımla, mələyimlə oynadım.

### *QAYITMAQ OLMUR*

Yaman çətin olurmuş ötənləri unutmaq,
Yollarda yorulursan, qayıtmaq olmur geri.
Xəyallarla uçursan, dağa-daşa çıxırsan,
Cığırla burulursan, qayıtmaq olmur geri.

Gül-çiçək də dərirsən, çəməndə də yatırsan,
Toza da bələnirsən, palçığa da batırsan.
Yağışda islanırsan, dənizə can atırsan,
Bulanıb, durulursan, qayıtmaq olmur geri.

Səsləyirsən gedəni, boğulursan, səs çatmır,
Kəmhövsələ olursan, hər şeyə həvəs çatmır.
Enişdə diz burxulur, yoxuşda nəfəs çatmır,
Sürüşüb-yıxılırsan, qayıtmaq olmur geri.

Düşünürsən, könlündən Mil keçir, Muğan keçir,
Özünə qayıdırsan, fikir, həyacan keçir.
Gözəllər qoca deyir, fürsət səndən yan keçir,
İnciyib qırılırsan, qayıtmaq olmur geri.

Karvan ötür, yol sənin, sən də düşüb gedirsən,
Ömür qır qazanıdır, yanıb-bişib gedirsən.
Min dəfə sevilsən də yenə şişib gedirsən,
Təzədən vurulsan da qayıtmaq olmur geri...

### *BUDUR*

Nə gözəl xoş oldu, bu görüşümüz,
Günlərin gözəli, səfası budur!
Alimli, şairli verdik baş-başa,
Tanrının alxışı, duası budur!

Ədalət axtardıq, düz sözə gəldik,
Bir şam işığına, od-közə gəldik.
Sözün dərgahında göz-gözə gəldik,
Ömrün etibarı, vəfası budur!

Qələmlə Tanrının sözünü dedik,
Yaxşı da, yaman da düzünü dedik.
Həyatın ağ-qara üzünü dedik,
Dedik, ağı budur, qarası budur!

Könlümüz yaxındı olsaq da harda,
Qələmə sığındıq çətində, darda.
Ömrümüz, günümüz bu kitablarda,
Sözün də qüdrətli qalası budur!

Bu gün də zamanın bir gərdişidir,
Taleyin yazısı, Haqqın işidir.
Ən gözəl görüşlər dost görüşüdür,
Bizim ömrümüzün mənası budur!

Cavanşir Qənbərəm meydanımız var,
Neçə ki, yazmağa imkanımız var,
Bir qələm, bir dəftər, bir canımız var,
Fələyin bizimlə davası budur!

# BAXIRAM

Oğruya-doğruya, çalıb-çapana,
Mən də bir qıraqdan durub, baxıram.
Bir kimsə oxumur yazdıqlarımı,
Kitabı-dəftəri cırıb baxıram.

Hər hündür binadan ölkə görünür,
Büllur vicdanlarda ləkə görünür.
Buruqlar yupyumru kökə görünür,
Hirslənib qələmi qırıb, baxıram!

Hər addım dərd-fikir, hər kəlmə acıq,
Bir azca mey yuyur dərdi azacıq.
Bir gözüm qapalı, bir gözüm açıq,
Hamıya, bir çappa vurub, baxıram!

# SEVMƏDİM

Mən sənə vuruldum, mən səni sevdim.
Həsrəti sevmədim, qəmi sevmədim.
Mən sənin o ğülən ğözünü sevdim,
Mən sənin gözündə nəmi sevmədim.

Canıma can deyən, sən canan idin,
Sənə can deyəndə, "canımsan", dedin.
Mən sənə yar dedim, "Yarımsan", dedin,
İlqarsız-peymansız səni sevmədim.

Səninlə ömrümü, ğünümü böldüm,
Səninlə qəlbimi, könlümü böldüm.
Mən səni hamıdan ağıllı bildim,
Özumtək ağildan kəmi sevmədim.

# DESƏN

İnan ki, üzümdə qəm-kədər olmaz,
Kefimi soruşub, mənə can desən!
Qadanı alaram, qurbanın ollam,
Dolannam başına, "gəl, dolan", desən.

Gecə də, gundüz də oyaq olaram,
Sən olan otaqda cıraq olaram,
Üşüsən od olar, ocaq olaram,
İnan kı, yanaram, "alış, yan", desən.
Sən Leyli misallı, vurğunam sənə,
Məni Məcnun cağır, Cavanşir demə.
Saf məhəbbətinə, ülvi eşqinə
Kecərəm, a gülüm, canimdan, desən.

# İNDİ

*Babamin əziz xatirəsinə*

Başına qar yağsın deyirdin hərdən,
Ay baba, başıma qar yağıb indi.
Deyirdin saqqalın-sacın ağarsin,
Saqqalım, saçım da ağarıb indi.

Bax, indi bilirəm dediyin qarğış,
Mənə dua imiş, alxışmış, alxış...
İllər tellerimə vururmuş naxış,
kələflər, ilmələr ağ qalıb indi.

Sənin tək bağlıyam mən də bu kəndə,
Əzizdir, doğmadır cöl də, cəmən də.
Sənli bir xatirə yaşayır məndə,
Sənsiz duman qalıb, dağ qalıb indi.